Gecə keçəndə, sübh çağı,
Əzizim, qonaq gəl indi.

Neynirsən vaxtı, zamanı,
Gözləmə qatı dumanı.
Ziyarətgah bil buranı,
Əzizim, qonaq gəl indi.

Çox da gözlətmə İlqarı.
Əyilib həsrətə sarı...
Sonda güzəştə get barı,
Əzizim, qonaq gəl indi.

SÖYLƏ, SÖYLƏ

Gözlərində nişan olub,
Könlümü qan eylə, eylə.
Buz ürəyimə od salıb,
Düş dalımca, teylə, teylə.

Gün buludu yaran kimi,
Gül buludsuz solan kimi,
Qızdırmadan yanan kimi,
Of, sevirəm, - söylə, söylə.

Ay qız, İlqar Daşdı gilə,
Gəl, ağlama gilə. gilə,
Eşqimizi salıb dilə,
Car çəkməynən bilə, bilə.

Türküstan.- 2023- cü il.- 24- 30 oktyabr.- S. 11.- №-38.

**İlqar DAŞDI**

## Qonaq gəl indi

Könlümün pərişan vaxtı,
Əzizim, qonaq gəl indi.